# General-mayor Polad Həşimovun xatirəsi yad edilib

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun xatirəsi anılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZ?RTAC-a bildiriblər ki, bir qrup zabit, Vətən müharibəsinin iştirakçıları, ictimaiyyətin nümayəndələri, eləcə də Milli Qəhrəmanın ailə üzvləri general-mayor Polad Həşimovun doğum günündə onun məzarını ziyarət ediblər.



General-mayor Polad Həşimov 1975-ci il yanvarın 2-də Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailəsi ilə birgə Sumqayıt şəhərinə köçdüyündən bu şəhərdəki 28 və 34 nömrəli məktəblərdə orta təhsil alıb. Sonra o, taleyini hərbçi peşəsinə bağlamaq üçün indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və bu xüsusi təyinatlı təhsil ocağını müvəffəqiyyətlə bitirib.

Taqım komandirliyindən "general-mayor" ali hərbi rütbəsinədək yüksələn Polad Həşimov cəbhə bölgələrində xidmət edərək qarşıya qoyulmuş əmr və tapşırıqların layiqincə yerinə yetirilməsi üçün səy göstərib.

2016-cı ilin Aprel döyüşləri zamanı ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Azərbaycan Ordusu qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Sərəncamına əsasən, Polad Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

2019-cu il iyunun 24-də Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilib.

Polad Həşimov 2020-ci il iyulun 14-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Anım mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhidin ailəsinə başsağlığı verilib, məzarı üzərinə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

# Vətənpərvərlik

Rayonumuzun yaradıcı insanları sayılan Qəbələ yazarları şairləri vətənpərvərlik mövzu-



sunda özünəməxsusu tərzdə yazır, vətən uğrunda döyüşən eloğlularımızı tərənnüm edirlər. Vətən Müharibəsi başlanan gündən onlar əsgər ailələri ilə görüşür, zəfər və qələbə mövzusunda bədii yazılar yazır, qazi və şəhid ailələri ilə mütəmadi görüşlər keçirirlər. Qəbələ yazarları 20 Yanvar Hüzn günü ilə əlaqədar Şəhidlər Xiyabanına gedərək şəhidlərin məzarlarını ziyarət etmiş və Vətən Müharibəsi şəhidlərinə aid olan "Şəhidlər muzeyi"ni ziyarət etmişlər. Ayrı-ayrı yazarlar tərəfindən bu mövzuda yazılan kitablar muzeyə təqdim olunmuşdur.



İctimaiyyətin nümayəndələri olan bu vətənpərvər insanlar həmçinin, rayonumuzun şəhidlərinin təbliğini və vətənpərvərlik mövzusunun təbliğini öz müqəddəs borcları kimi daima davam etdirirlər.

**BİBİXANIM.**

# 20 Yanvar – Azərbaycan xalqını birliyə səsləyən gündür

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də, kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqı üçün təkcə böyük faciə deyil, eyni zamanda milli qürur və fəxarət tarixi, xalqın canı və qanı ilə dastan yazdığı bir gündür.

Ölkəmizin ictimai-siyasi həyatına 20 Yanvar faciəsi kimi daxil olmuş bu günün xalqımızın milli yaddaş fəlsəfəsi və özünüdərk prosesində özünəməxsus yeri vardır.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi.

Azərbaycan xalqı 1990-cı ilin yanvar ayında televiziya ekranlarında öz həmvətənlilərinin nə cür qəddarlığa məruz qalmasına dəhşətli şəkildə şahidlik etdi. Qanlı Yanvar hadisəsi Azərbaycan xalqına qarşı törədilmiş ən ağır hərbi cinayətlərdən birinə çevrildi.

1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi




təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək yerləşdirilmişdir. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

Faciədən sonra Azərbaycanda milli azadlıq hərəkatı dönməz xarakter aldı və xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanın yaranmasında gördü. Baş vermiş hadisələrdən sonra dünya azərbaycanlıları ilk dəfə olaraq milli faciəmizin tanıdılması naminə yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar.

O zamanlar bu proseslərə qiymət vermək, münasibət bildirmək həddindən artıq qorxulu məsələ idi, amma buna baxmayaraq 20 Yanvar hadisələri ilə bağlı ilk rəsmi etiraz ulu öndər Heydər Əliyev tərəfindən səsləndirilmişdir. O, heç bir təhlükədən çəkinməyərək 1990-cı ilin yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham edərək Azərbaycan xalqını birliyə səslədi.

Baxmayaraq ki, qanlı faciənin üzərindən 32 il keçir, bu cinayəti törətmiş şəxslər hələ də məsuliyyətə cəlb olunmamış və bir çox beynəlxalq təşkilatlar çox təəssüf ki, bu günədək susurlar.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 32-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

Bu gün artıq hər birimiz qürurla deyə bilərik ki, dövlətimiz, ordumuz şəhidlərimizin, xalqımızın başına gətirilən müsibətlərin qisasını artıqlaması ilə aldı. Həm də 44 gün ərzində. 90-cı illərdə rus qoşunları, ermənilər torpaqlamızı yenidən işğal etdilər. O da azmış kimi soydaşlarımızı vəhşicəsinə qətlə yetirdilər, yurd-yuvalarından didərgin saldılar. Lakin düşmən bilmirdi ki, Azərbaycan xalqı qisas müharibəsini bir gün edəcək.

2020-ci il 27 sentyabr tarixi xalqımız üçün çox önəmli bir tarix oldu. Çünki 20 Yanvar və Xocalı qətliamının qisasının vaxtı gəlib çatmışdı. 44 gündə zəfərlə başa çatdırılan Vətən müharibəsi Azərbaycan xalqının 30 ilə yaxın çəkdiyi torpaq həsrətini bitirdi. Xalq və ordu Ali baş Komandan ətrafında birləşərək öz əzmini bütün dünyaya sübut etdi. Bu Zəfər öz gücünü 20 Yanvar mücahidlərinin əzm və iradəsindən götürmüşdü. Qanlı Yanvar hadisələri tarixdə bir faciə, dəhşətli bir terror aktı kimi qalmaqla yanaşı, həm də cənab İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Elə buna görə də, 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək. İstər 20 Yanvar şəhidlərinin, istərsə də Birinci Qarabağ və Vətən Müharibəsi şəhidlərinin ruhu daim anılacaq, onların əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

**Zinyət BAĞIROVA,**
**Qeydiyyat şöbəsinin rəisi.**